Mədəni-maarif.-2005.-№5.



# L. VƏ M. ROSTROPOVİÇLƏRİN EV-MUZEYİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının 1997-ci il 23 may 571 saylı sərəncamına əsasən Bakıda XX əsrin istedadlı və dahi musiqiçiləri L. və M.Rostropoviçlərin ev-muzeyi təşkil edildi. Muzey öz fəaliyyətinə 1998-ci ildən başlayıb. 2002-ci il mart ayının 4-də muzeyin ekspozisiyasının təntənəli açılışı oldu. Hal-hazırda muzeyin fondlarında 2000-dən artıq eksponat saxlanılır. Muzeyin ekspozisiyasında isə 544 ədəd müxtəlif xarakterli eksponatlar nümayiş etdirilir. Fəaliyyət göstərdiyi dövrdən indiyə qədər muzeyin 3000-dən artıq qonağı olub. Muzeyə gələn fəxri qonaqlar arasında hər il muzeyə qonaq olmağı ənənəyə çevirən XX əsrin dahi musiqiçisi M. Rostropoviç, L. Rostropoviç, istedadlı opera müğənnisi Q. Vişnevskaya, musiqişünas T.Qrum-Qrcimaylo, M. Rostropoviçin tələbəsi, Nobel Fondunun sədri V. Labanov, Avstriyanın xarici işlər naziri xanım Cenito Ferrero Pablo, alman dirijoru Pyer Dominiq Ponelli, Ümumdünya Bankının Prezidenti və başqaları olmuşlar. Fəaliyyət göstərdiyi gündən muzeydə bir çox tədbirlər: ata və oğul Rostropoviçlərin və Azərbaycan violonçel ifaçılarının həyat və yaradıcılıqlarına həsr olunan sərgilər və musiqi gecələri keçirilmişdir. Muzeyə gələn qonaqlar Azərbaycan torpağının dünya musiqi mədəniyyətinə bəxş etdiyi dahi musiqiçinin doğulduğu evdən xoş təəssüratla ayrılırlar.

